**AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ**

AZ1022, Bakı şəhəri, Nəsimi rayonu, M.Mirqasımov küç.,1A Tel.: (+994 12) 441 26 03 Faks: (+994 12) 493 06 95
www.health.gov.az e-poçt: office@health.gov.az

"13" İyun 2017 il № 44

# ƏMR

**"Formula 1 Azərbaycan Qran Prisi" yarışının tibbi təminatı barədə"**

23-25 iyun 2017-ci il tarixlərində Azərbaycanda "Formula 1 Azərbaycan Qran Prisi" yarışının keçirilməsi ilə bağlı tədbirin iştirakçılarına və qonaqlara tibbi yardımı təmin etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova və Bakı şəhər Baş Səhiyyə İdarəsinin rəisi E.Əliyevaya tapşırılsın:

1.1. yarışın keçiriləcəyi ərazilərdə təcili tibbi yardım xidmətinin növbətçiliyi təmin edilsin;

1.2. yarışın keçiriləcəyi müddət ərzində ehtiyac olduğu halda idmançıların və qonaqların hospitalizasiyası müvafiq olaraq Mərkəzi Neftçilər Xəstəxanasına və Bakı şəhər Kliniki Tibbi Mərkəzə təmin edilsin.

2. Səhiyyə Nazirliyinin tibb idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, tədbir iştirakçıların və qonaqların müraciəti zamanı onlara yüksək səviyyəli tibbi yardımın göstərilməsi təmin edilsin.

3. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktorunun vəzifəsini icra edən İ.Abdullayevə tapşırılsın ki, nümayəndə heyətləri üçün ayrılmış mehmanxanalarda və iaşə müəssisələrində sanitariya-gigiyena qaydalarına əməl olunmasına ciddi nəzarət təmin edilsin.

4. Əmrin icrasına nəzarət nazir müavinlərinə həvalə edilsin.

**Nazir** **Oqtay Şirəliyev**